**UOT 78**
**https://doi.org/10.59849/2311-8482.2024.1.261**

**NAZLI MUSTAFAYEVA***

# SÜLEYMAN ƏLƏSGƏROVUN 100 İLLİK YUBİLEYİ ƏRƏFƏSİNDƏ YARADICILIĞINA BİR NƏZƏR

*Təqdim edilən məqalədə Azərbaycan Respublikasının Xalq artisti Süleyman Ələsgərovun 100 illik yubileyi ərəfəsində yaradıcılığının xüsusiyyətləri işıqlandırılmışdır. Məqalədə S.Ələsgərovun yaradıcılığında musiqi dilinin milli xüsusiyyətlərə əsaslanması və mövzu müxtəlifliyi qeyd olunur. Vurğulanır ki, S.Ələsgərov müxtəlif janrları əhatə edən zəngin yaradıcılıq irsinə malikdir və əsərləri bəstəkarın özünəməxsus fərdi dəst-xəttinin xüsusiyyətlərini özündə əks etdirir. Eyni zamanda bəstəkarın yaradıcılığında ən çox müraciət etdiyi musiqili komediyaları, mahnıları və digər müxtəlif janrlı əsərləri haqqında məlumat verilir.*

***Açar sözlər:*** *Süleyman Ələsgərov, bəstəkar, mahnı, lirika, vokal, xalq musiqisi, ənənə*

## Giriş

Bu il 100 illik yubileyi qeyd olunan Süleyman Ələsgərovu Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Bəstəkarlar İttifaqının Qarabağ filialının rəhbəri (1972–2000), görkəmli bəstəkar kimi səciyyələndirməkdən əvvəl bu kəlmələrlə daha dəqiq şəkildə ifadə etmək mümkündür: Üzeyir bəy ənənələrinin parlaq davamçısı.

## Əsas təhlil

S.Ələsgərovun bu il qeyd olunan yubileyi əvvəlkilərdən çox fərqli ab-havaya malikdir. Həyatdan Şuşa nisgili ilə köçən S.Ələsgərovun 100 illik yubileyi onun doğulduğu, böyüyüb boya-başa çatdığı şəhərinin mənfur düşmənlərdən azad olduğu dövrə təsadüf edir. Əminəm ki, S.Ələsgərovun ruhu bu gün doğma Şuşasının mavi səmasında dolaşaraq, onun vətən həsrətinə son qoymuşdur. Bəstəkarın bu il keçirilən yubileyində yaradıcılığına sanki fərqli bir yanaşma göstərilməsi də buradan qaynaqlanır.

Bir bəstəkar kimi S.Ələsgərov zəngin bir irsə malikdir. Onun yaradıcılığı həm mövzu və obrazlar baxımından, həm də müraciət etdiyi janr müxtəlifliyinə görə çox rəngarəngdir. Vətəninə bağlı olan S.Ələsgərovun yaradıcılığında doğma Azərbaycanla bağlı mövzular üstünlük təşkil edir. Bu bağlılıq onun əsərlərinin ilk xanələrindən etibarən özünü göstərir. Milli boyalarla aşılanmış musiqi, əsərlərinin obraz-emosional məzmunu, vətən torpağı ilə bağlı mövzular S.Ələsgərovun zəngin yaradıcılıq irsinin əsas xüsusiyyətini təşkil edir.

Qarabağ torpağında dünyaya göz açması, Şuşanın musiqili-ədəbi mühitində böyüməsi, xalq mahnılarını, muğamları dinləməsi S.Ələsgərovun yaradıcılığında milli musiqi elementlərinin bərqərar olmasına səbəb olmaqla yanaşı, həm də zəngin intonasiya potensialından bacarıqla istifadə etməsinə yol açmışdır. Eyni zamanda dahi Üzeyir Hacıbəylinin sinfində təhsil alması, xalq musiqisinin əsaslarını və bir sıra yaradıcılıq prinsiplərini bu böyük sənətkardan mənimsəməsi S.Ələsgərova bilavasitə təsir edərək, onun əsərlərinin istiqamətini müəyyənləşdirmişdir.

S.Ələsgərovun yaradıcılığına nəzər saldıqda, diqqəti ilk cəlb edən onun əsərlərinin həyatsevər lirik ruha, nikbinliyə malik olmasıdır. Lakin bəstəkar həyatın yalnız işıqlı tərəflərini əks etdirməklə məhdudlaşmamışdır. Onun əsərlərində həyatın gerçəklikləri, yaşadığı dövrün reallıqlarını qəbul edən müdrik sənətkarın obrazını izləmək mümkündür. Bütün bu cəhətlər isə S.Ələsgərovun həyata, doğma torpağa və vətənə olan sevgisinin tükənmədiyini, işıqlı gələcəyə, xoş arzulara olan ümidlərinin ifadəsi kimi səslənir.

Azərbaycan bəstəkarlıq məktəbinin parlaq sənətkarı kimi S.Ələsgərov musiqinin bir çox janrlarına müraciət etmişdir: opera, operetta, kantata, vokal-simfonik poema, süita, instrumental konsert, kamera musiqisinin müxtəlif növləri, xalq çalğı alətləri orkestri və ansamblı üçün yazılmış əsərlər və s. Onun müraciət etdiyi hər bir janrda, hər bir mövzuda S.Ələsgərovun musiqi istedadının və yaradıcılıq təxəyyülünün parlaq təzahürlərini görmək mümkündür.

Milli musiqi təfəkkürünün xüsusiyyətləri S.Ələsgərovun əsas yaradıcılıq mənbəyi olmuşdur.

Belə ki, bəstəkarın yazı üslubunun özünəməxsusluğu, fərdi bəstəkarlıq üslubu, əsərlərinin musiqi dilinin xüsusiyyətləri S.Ələsgərova bütün janrlarda canlı və real obrazlar aləmini yaratmağa imkan vermişdir. Özünəməxsus professional səviyyə ilə milli musiqinin xüsusiyyətlərini qovuşdurmağa nail olan S.Ələsgərovun obrazlar aləminin ən yüksək keyfiyyətləri müxtəlif məzmunlu əsərlərində, xüsusilə də mövzu müxtəlifliyini özündə ehtiva edən musiqili komediyalarında parlaq təzahürünü tapmışdır. Onun dərin məzmunlu obrazlar aləmi, süjet xəttinin müxtəlifliyi, əsərlərinin rəngarəngliyi nəinki yaradıcılığında, eləcə də milli musiqi mədəniyyətimizdə özünəməxsus bir istiqaməti yaratmışdır. Bu barədə S.Təhmirazqızı yazır: "Onun bütün yaradıcılığı xalq musiqisindən bəhrələnib. Milli musiqimizin əsas xüsusiyyətlərinin qərb musiqi elementləri ilə üzvi şəkildə sintezini yaradan bəstəkar bu cəhəti də müəllimi Üzeyir bəydən əxz etmiş və ömrünün sonuna qədər də ona sadiq qalmışdır" [5, s.8].

S.Ələsgərovun sənət uğurlarını qazanmasında onun həvəslə və böyük əzmlə çalışmasının mühüm rolu olmuşdur. Belə ki, S.Ələsgərov musiqi ifaçılıq sənətinin sirlərinə yiyələnmək məqsədi ilə təhsil illərində təşkil olunan bədii özfəaliyyət kollektivlərində də çalışmışdır. Öz üzərində daim çalışmasının nəticəsi idi ki, o, Şuşa musiqi texnikumu ilə yanaşı, pedaqoji texnikumda təhsil almış və bu illərdə tələbə olmasına baxmayaraq, müəllim kimi də fəaliyyət göstərmişdir. Eyni zamanda S.Ələsgərovun bir çox dərsliklərin müəllifi və elmi redaktoru olması da onun pedaqoji fəaliyyəti nəticəsində əldə etdiyi biliklərin məcmusudur.

S.Ələsgərovun bəstəkarlıq yolunun müəyyənləşməsində Azərbaycan Dövlət Konservatoriyasında təhsil aldığı illərin böyük əhəmiyyəti olmuşdur. Belə ki, bəstəkarlıq üzrə Boris Zeydmanın sinfini fərqlənmə diplomu ilə bitirən S.Ələsgərov yaradıcılığının erkən mərhələsindən başlayaraq, zəngin musiqi dilinə və dərin düşüncəli məzmuna malik əsərlər yaradır. Bu baxımdan onun "Gözlə məni" mahnısı xüsusilə vurğulanmalıdır. Şirzad Əliyevin sözlərinə yazılmış bu mahnı S.Ələsgərovun sənət aləmində tanınmasında mühüm əhəmiyyət kəsb etmişdir. Onu da qeyd edək ki, 1944-cü ildə Tbilisidə keçirilən Zaqafqaziya respublikaları xalqlarının musiqi ongünlüyündə S.Ələsgərovun "Gözlə məni" mahnısı da Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət olan repertuara daxil idi. Bu mahnı ilə dahi ustadının – Üzeyir Hacıbəylinin sənət xeyir-duasını alması S.Ələsgərovun erkən bəstəkarlıq qələminin ən parlaq nümunəsi olur və onun sənət aləmində tanınmasına gətirib çıxarır. Təsadüfi deyildir ki, bu mahnıdan sonra Ü.Hacıbəylinin zəmanəti ilə S.Ələsgərov Azərbaycan Bəstəkarlar İttifaqına üzv qəbul edilir. Növbəti illərdə İttifaqın ən məhsuldar və fəal üzvlərindən biri olan S.Ələsgərov müəlliminin ona olan etibarını və etimadını yaratdığı əsərləri və bu əsərlərdə ifadə etdiyi dərin məzmunlu obrazlar sayəsində doğruldur.

S.Ələsgərov konservatoriyanı bitirən zaman gənc olmasına baxmayaraq, maraqlı əsərləri və milli musiqinin elementlərinə əsaslanan musiqisi ilə tanınırdı . Bu dövrdə o, bir müddət Bakı Orta İxtisas Məktəbinin rəhbəri kimi çalışır. Daha sonra konservatoriyanın xalq musiqisi kafedrasında fəaliyyətini davam etdirir və 1971-ci ildən isə kafedraya rəhbərlik etmişdir. Bu dövrdən başlayaraq, S.Ələsgərovun fəaliyyətinin zənginliyi özünü büruzə verməyə başlayır. Təhsilini tamamladıqdan sonra S.Ələsgərov Azərbaycanın bir çox yaradıcı kollektivlərində çalışmışdır. Belə ki, Respublika Radio Verilişləri Komitəsinin xalq çalğı alətləri orkestrində iştirakı, daha sonra Azərbaycan Dövlət Musiqili Teatrına dəvət olunaraq burada baş dirijor və musiqi hissə müdiri vəzifəsində çalışması, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs ansanblının rəhbəri təyin olunması, Azərbaycan xalq çalğı alətləri orkestrində dirijor, Respublika Radio Verilişləri Komitəsinin bədii rəhbəri vəzifəsində fəaliyyət göstərməsi onun çoxcəhətli yaradıcılığının yalnız bir hissəsini nümayiş etdirir. S.Ələsgərovun çoxşaxəli yaradıcılıq fəaliyyətinin bir hissəsini də Azərbaycan Dövlət Musiqili Komediya Teatrı ilə bağlı səhifələr təşkil edir. Teatrın direktori vəzifəsində çalışan S.Ələsgərov insanı düşündürən yumora malik olan əsərləri ilə Azərbaycan tamaşaçılarının qəlbini fəth etməyə nail olmuşdur. Mövzu rəngarəngliyi, səhnə hadisələrinin gözlənilməz dəyişiklіyi, zəngin obrazlar qalereyası S.Ələsgərovun bu teatr səhnəsində tamaşaya qoyulan əsərlərinin əsas xüsusiyyətini təşkil edir.

S.Ələsgərovun yaradıcılıq irsinə daxil olan iki opera onun bəstəkarlıq dəst-xəttinin xüsusiyyətlərini özündə qovuşdurur. 1961-ci ildə Nəriman Nərimanovun əsəri əsasında yazdığı "Bahadır və Sona" adlı ilk operası bəstəkara böyük uğur gətirir. Bu operanın librettosu Əfrasiyab Bədəlbəyliyə, şeirləri isə Şıxəli Qurbanova məxsusdur. Sonrakı dövrdə Cəfər Cabbarlının əsəri əsasında yazdığı "Solğun

çiçəklər" adlı ikinci operası isə S.Ələsgərovun bu janr sahəsində malik olduğu peşəkar yanaşmanı nümayiş etdirir. S.Ələsgərovun operaları onu həssas bir lirik, insan qəlbinin psixoloji vəziyyətini açmağa nail olan bir bəstəkar kimi səciyyələndirməyə imkan verir.

Bəstəkarın ən məhsuldar şəkildə müraciət etdiyi janr sahəsi onun musiqili komediyalarıdır. 1945-ci ildə yazdığı "Məhəbbət gülü" adlı ilk musiqili komediyasından (libretto: H.Muxtarov) başlayaraq, 1995-ci ildə yazdığı "Hərənin bir ulduzu" əsərinə (Libretto: İ.Məlikzadə) kimi çoxsaylı və müxtəlif xarakterli obrazları özündə birləşdirən maraqlı janr nümunələri yaratmışdır. Xüsusilə "Ulduz" musiqili komediyası (libretto: Sabit Rəhman) onun bu janr sahəsində yazdığı parlaq musiqi nümunələrindəndir. S.Ələsgərovun musiqili komediya sahəsində yazdığı orijinal janr nümunələri onun bəstəkarlıqla yanaşı, həm də həssas bir psixoloq, incə yumor hissinə malik olmasının da göstəricisidir. S.Ələsgərovun "Milyonçunun dilənçi oğlu" musiqili komediyasının 1967-ci ildə Ü.Hacıbəyli adına Respublika mükafatına layiq görülməsi bəstəkarın bu səciyyəvi keyfiyyətlərindən irəli gəlmişdir. Onun "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Sevindik qız axtarır" (libretto: Ş.Qurbanov), "Hardasan, ay subaylıq", "Həmişəxanım", "Gurultulu məhəbbət" (libretto: S.Qədirzadə), eləcə də "Subaylarınızdan görəsiniz" (libretto: İ.Məlikzadə) kimi musiqili komediyaları yaradıcılığının bu janr sahəsində parlaq səhifəsini təşkil edir.

S.Ələsgərov musiqili komediya janrı sahəsi ilə yanaşı, müxtəlif musiqi janrlarında da özünəməxsus musiqi dilinə və dəst-xəttinin xüsusiyyətlərinə malik olan əsərlərin müəllifidir. Onun ictimai fəal musiqiçi və dövründə baş verən hadisələrə həssaslıqla yanaşmasını nəzərə alaraq, qeyd etmək lazımdır ki, S.Ələsgərov doğma ölkəsinin ictimai-siyasi həyatına biganə qalmamışdır.

Bir bəstəkar kimi yaşadığı dövrün hadisələrini əks etdirməsi S.Ələsgərovun yaradıcılığında sadə zəhmət insanlarının tərənnümünə də zəmin yaratmışdır. Bu sahə ilk olaraq, bəstəkarın 1930-cu illərin sonundan başlayaraq, yaratdığı əsərlərində özünü büruzə versə də, bütün yaradıcılığı boyu davam etmişdir. S.Ələsgərov xalqının layiqli övladı kimi, daim zəmanəsinin qabaqcıl fikirli insanları ilə vətənpərvər ziyalıların irəli sürdüyü ideyaların parlaq davamçısı olmuşdur.

S.Ələsgərovun yaradıcılığının mühüm bir istiqamətini təşkil edən mahnı yaradıcılığında əməyin tərənnümünə və sadə əmək insanlarının şücaətinə həsr olunan musiqi nümunələri üstünlük təşkil edir. Vurğulamaq lazımdır ki, S.Ələsgərov Azərbaycan bəstəkarları arasında əmək mövzusuna müraciət edən və bu mövzu üzrə çoxsaylı mahnılar yazan bəstəkarlardan biridir. Müxtəlif peşə sahiblərinin əməyini tərənnüm edən mahnılar arasında pambıqçı, neftçi, toxucu, sağıcı, inşaatçı, üzümçü, çoban kimi sadə insanlarla rastlaşmaq mümkündür. Cəsarətlə deyə bilərik ki, S.Ələsgərov Azərbaycan bəstəkarları arasında bu istiqamət üzrə ən çox mahnı yazan bəstəkar kimi dəyərləndirilə bilər. Onun müəllifi olduğu müxtəlif əmək mahnıları – Sosialist Əməyi Qəhrəmanı, neftçi İsrafil Hüseynova "Hünər nəğməsi", iki dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənovaya "Şamama", çoban Süleyman Bağırova "Qəhrəman çoban", inşaatçı Məmməd Hüseynova "Usta Məmməd" və digər mahnıları əmək mövzusunda yazdığı ən mükəmməl nümunələrdəndir. Onu da qeyd etməliyik ki, S.Ələsgərov Naxçıvan Muxtar Respublikasında baş verən hadisələri də diqqətdə saxlamış və bu diyarın zəhmətkeşləri üçün də maraqlı musiqi dilinə malik olan və zəhmətsevərliyin yaratdığı firavan həyatı tərənnüm edən mahnı nümunələri ərsəyə gətirmişdir. Bu baxımdan Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovaya həsr olunmuş "Bahar" mahnısını xüsusilə qeyd etməliyik. Sadə zəhmət insanının xoş həyatını tərənnüm edən bu mahnıda musiqi dilinin sadəliklə yoğrulan gözəlliyi zəhmətkeş qadının obrazını təcəssüm etmişdir.

Eyni zamanda S.Ələsgərov Naxçıvan Muxtar Respublikasının 60 illiyinə həsr edilmiş "Bayram" suitasının da müəllifidir. Mahnı və rəqs ansamblı üçün yazılmış bu əsər qədim diyarın vüqarlı keçmişini, sadə insanların həyatını tərənnüm edir.

S.Ələsgərovun vokal yaradıcılığında romans janrı da əsas yer tutur. "Yada düşdü" (söz: C.Cabbarlı), "Vətənimdir" (söz: M.Füzuli), "Sərvi xuramanım mənim" (söz: N.Gəncəvi), "Küsmərəm" (söz: M.Müşfiq), "Neylərəm" (söz: Nəsimi) bəstəkarın bu janr sahəsində yaratdığı dəyərli romans nümunələri kimi dəyərlidir.

Xalq musiqisinə, muğamlara əsaslanan S.Ələsgərovun Nizami Gəncəvinin qəzəlinə "Sərvi xuramanım mənim", Füzulinin sözlərinə "Vətənimdir" romansları musiqi dili ilə vokal əsər arasında üzvi bağlılığın olmasının bariz nümunəsidir. Ü.Hacıbəylinun ənənələrində yazılan bu romans-qəzəllər bu janr sahəsində əhəmiyyətli nümunə kimi dəyərləndirilə bilər. Ümumiyyətlə, S.Ələsgərovun milli

poeziyaya, klassik şeirin xüsusiyyətlərinə və əruz vəzninə mükəmməl bələd olması, eləcə də muğamın qanunauyğunluqlarını bilməsi bu romans-qəzəllərin dərin milli köklərlə bağlılığını təmin etmiş və axımlı melodiya ilə mətn arasında üzvi əlaqə yaratmışdır.

Yaradıclığında lirik və oynaq mahnıların qovuşması da S.Ələsgərovun müxtəlif məzmunlu musiqi əsərlərini öz yaradıcılığında ifadə etməsini nümayiş etdirir. Böyüyüb boya-başa çatdığı Şuşaya, doğma Qarabağ torpaqlarına həsr etdiyi mahnılar onun vətən həsrətinin inikasıdır. Əlbəttə ki, görkəmli bəstəkar Şuşanın azad olmasının canlı şahidi olsaydı, bu mütləq şəkildə onun mahnılarında ruh yüksəkliyi ilə ifadə oluna bilərdi. S.Ələsgərovun yaradıcılığında vətənpərvərlik mahnıları da mühüm əhəmiyyət kəsb edir. Bu barədə S.Qarabağlı yazır: "XX əsrin 80-ci illərin sonlarından başlayaraq bəstəkar bu janrda xeyli əsər yazmışdır. Süleyman müəllim deyirdi ki, xalqımızın belə ağır, çətin günündə biz sənətkarlar tariximizi, başımıza gələn faciələri öz əsərlərimizdə elə təsvir etməliyik ki, şahid kimi gələcək nəslə yadigar qalsın. Ürəyi Vətən arzusu ilə çırpınan bəstəkarın hərbi-vətənpərvərlik mövzusunda "Yürüş mahnısı", "Gənclik marşı", "Əsgər marşı", "Bu torpağa bağlıyıq", "Hardasan igid oğlan", "Biz qələbə çalmalıyıq", "Bura Vətəndir", "Güllələnən abidələr", "Azərbaycan polisi", "Bakı-Ankara" kimi əsərləri öz aktuallığı ilə diqqəti cəlb edərək, mübarizə əzmi yaradır" [3].

Süleyman Ələsgərov əziz və sevimli müəllimi, böyük ustadı və yaratdığı ənənələri şərəflə davam etdirdiyi Üzeyir bəy Hacıbəylinin xatirəsini hər zaman ehtiramla yad etmiş, onun yaradıcılığının parlaq davamçısı kimi diqqəti cəlb etmişdir. O, trio üçün "Düşüncə" pyesini, S.Vurğunun Üzeyir bəyin xatirəsinə yazdığı şeirə "Eşq olsun sənətkara" balladasını məhz dahi bəstəkara ithaf etmişdir.

S.Qarabağlı öz məqaləsində S.Ələsgərovun Üzeyir bəy yaradıcılığına olan dərin ehtiramını belə ifadə etmişdir: "S.Ələsgərov Üzeyir bəy Hacıbəylinin vurğunu idi. Üzeyir bəyin bütün gözəl cəhətlərini özündə cəmləşdirmişdi. Xeyirxahlıqda, alicənablıqda, millətini sevməkdə Üzeyir bəyə bənzəyirdi. Hamıya kömək etməyi özünə borc bilirdi.

S.Ələsgərov tez-tez Üzeyir Hacıbəylinin ev muzeyinə gələrdi. Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasının klavirini, özünün Türkiyədən gətirdiyi qəzetləri muzeyə hədiyyə etmişdi. Sonuncu dəfə isə 1999-cu ilin 23 noyabrında Süleyman müəllim sevimli bəstəkarımız Vasif Adıgözəlovla birlikdə Üzeyir bəyin vəfatının 51-ci ildönümü ilə əlaqədar muzeyə gəlmişdi. O, tədbirdə çıxış etdi və muzeyə Üzeyir bəy Hacıbəylinin rəngli fotoşəklini bağışladı. Bu qiymətli hədiyyəni qəbul edəndə çox təəccübləndik. Üzeyir bəyin rəngli şəkli yox idi. O illərdə fotolar yalnız ağ-qara çəkilirdi. Məlum oldu ki, Süleyman Ələsgərov özü Ü.Hacıbəylinin fotoşəklini rəngli elətdiribmiş. Bu foto dəyərli hədiyyə kimi Süleyman müəllimdən muzeyə sonuncu xatirə oldu" [3].

Süleyman Ələsgərovun müxtəlif musiqi janrlarında yazdığı maraqlı əsərlər onun fərdi dəst-xəttinin göstəricisidir. Zəngin yaradıcılığına daxil olan "Bayram müqəddiməsi", "Vətən və gənclik" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, yeddi simfonik poema, suitalar, konsertlər, tar ilə xalq çalğı alətləri orkestri üçün üç konsert, violonçel, fortepiano və simfonik orkestr üçün "İkili" konsert, kamança və simli alətlər üçün "Tarantello", kanon üçün "Daimi hərəkət", simli orkestr üçün "Pyes" və başqa musiqi əsərləri S.Ələsgərovun məhsuldar və daim yazıb-yaratmaq həvəsində olan bəstəkar olduğunu nümayiş etdirir.

Onun xalq çalğı alətləri üçün yazdığı əsərlər milli musiqi alətlərimizin repertuarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. S.Ələsgərovun tar ilə fortepiano üçün sonatina, bir sıra pyesləri, eləcə də "Sözsüz mahnıları" bu sahədə yaranan əhəmiyyətli əsərlər kimi dəyərləndirilə bilər.

**Nəticə**

S.Ələsgərovla yaxın ünsiyyətdə olanlar onu mehriban, qayğıkeş, xeyirxah və səmimi bir insan kimi səciyyələndirirlər. Bu baxımdan S.Ələsgərov görkəmli bəstəkar olmaqla yanaşı, həm də əsl insani dəyərlərə malik olması ilə Azərbaycan xalqının qəlbində yaşayacaqdır. Bədii şəkildə ifadə etsək, bu gün S.Ələsgərovun doğma Şuşası üzərində dolaşan ruhu onun vətən həsrətli əsərlərinin son akkordlarını səsləndirir.

## ƏDƏBİYYAT

1. Babayev, E.Ə. Süleyman Ələsgərov / E.Ə.Babayev. – Bakı: Azərnəşr, – 1992. – 18 s.
2. Xəlilov, V.C. Bəstəkar Süleyman Ələsgərov / V.C.Xəlilov. – Bakı: İşıq, – 1989. – 95 s.
3. Qarabağlı, S. Üzeyir bəyin istedadlı davamçısı // Xalq qəzeti. – 2009, 8 aprel. – s. 7.
4. Mustafayeva, N.T. Bəstəkar Süleyman Ələsgərov yaradıcılığının əsas istiqamətləri // – Bakı: Konservatoriya, – 2014. №2 (24), – s. 25-30.
5. Təhmirazqızı, S. Süleyman Ələsgərov xatirələrdə / S.Təhmirazqızı. – Bakı: Təfəkkür, – 2002. – 390 s.
6. Везирова, Г.Х. Сулейман Алескеров…штрихи по портрету / – Баку: Мусиги дюнясы, – 2012. №2 (51), – с. 69 – 70.
7. Касимова, С.Дж. Сулейман Алескеров / С.Д.Касимова. – Баку: Азернешр, – 1974. – 32 с.

Saytoqrafiya

8. Süleyman Ələsgərovun 90 illik yubileyi. 22 fevral 2014-cü il. Heydər Əliyev Sarayı / [Elektron resurs] / URL: https://www.youtube.com/watch?v=0oEUi-7Xh7c
9. Süleyman Ələsgərov Vikipediya / [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/S%C3%BCleyman_%C6%8Fl%C9%99sg%C9%99rov_(b%C9%99st%C9%99kar)

***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: “Orqanologiya və Akustika” elmi-tədqiqat laboratoriyasının elmi işçisi,**
**e-mail: nazli.14@icloud.com***

**Nazli Mustafayeva**

### A LOOK AT THE CREATIVITY OF SULEYMAN ALASGAROV ON THE EVE OF HIS 100TH ANNIVERSARY

The presented article highlights the features of the work of the People's Artist of the Azerbaijan Republic Suleyman Alasgarov on the eve of his 100th anniversary. The article notes the variety of themes in S.Alasgarov’s work and emphasizes that the composer’s musical language is based on national characteristics. S.Alasgarov has a rich creative heritage, covering various genres, and his works reflect the characteristics of the composer’s unique personality. At the same time, information is provided about musical comedies, songs and other works of various genres that the composer most often used in his work.

**Keywords:** *Suleyman Alasgarov, composer, song, lyrics, vocals, folk music, tradition.*

**Назли Мустафаева**

### ВЗГЛЯД НА ТВОРЧЕСТВО СУЛЕЙМАНА АЛЕСКЕРОВА НАКАНУНЕ ЕГО 100-ЛЕТИЯ

В представленной статье освещаются особенности творчества Народного артиста Азербайджанской Республики Сулеймана Алескерова накануне 100-летнего юбилея. В статье отмечается многообразие тем в творчестве С.Алескерова и подчеркивается, что музыкальный язык композитора опирается на национальные особенности. С.Алескеров обладает богатым творческим наследием, охватывающим различные жанры, а его произведения отражают

особенности неповторимой индивидуальности композитора. Вместе с тем приводятся сведения о музыкальных комедиях, песнях и других произведениях различных жанров, которые композитор чаще всего использовал в своем творчестве.

**Ключевые слова:** *Сулейман Алескеров, композитор, песня, лирика, вокал, народная музыка, традиция*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 04.02.2024**
**Son daxilolma tarixi:06.03.2024**